**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 274/2** **11 mart 2016-cı il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında komitələrin 2015-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabatları və 2016-cı il üzrə iş planları barədə**

Auditorlar Palatasının Şurası yanında Metodik komitənin, Auditorların ixtisasartırma komitəsinin, Beynəlxalq standartlar üzrə komitənin, Mübahisə və apellyasiyalar üzrə komitənin, İnformasiya və mətbuat üzrə komitənin, Dövlət orqanları və ictimaiyyətlə əlaqələr üzrə komitənin, Beynəlxalq əlaqələr üzrə komitənin, Milli auditə dəstək üzrə komitənin, Qanunvericilik və hüquqi məsələlər üzrə komitənin, Auditorların peşə etikası komitəsinin, Üzvlük məsələləri üzrə komitənin 2015-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabatları və 2016-cı il üzrə iş planları ilə əlaqədar Palata tərəfindən həmin komitələrə təhkim olunmuş Auditorlar Palatası əməkdaşlarının (Q.Bayramov, N.Talıbov, F.Qarayev, M.Abbasov, S.Gülməmmədov, V.Rəhimov) məlumatlarını müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Metodik komitənin, Auditorların ixtisasartırma komitəsinin, Beynəlxalq standartlar üzrə komitənin, Mübahisə və apellyasiyalar üzrə komitənin, İnformasiya və mətbuat üzrə komitənin, Dövlət orqanları və ictimaiyyətlə əlaqələr üzrə komitənin, Beynəlxalq əlaqələr üzrə komitənin, Milli auditə dəstək üzrə komitənin, Qanunvericilik və hüquqi məsələlər üzrə komitənin, Auditorların peşə etikası komitəsinin, Üzvlük məsələləri üzrə komitənin 2015-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabatları bəyənilsin və 2016-cı il üzrə iş planları təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Metodik komitənin (F.Mustafayev), Auditorların ixtisasartırma komitəsinin (A.Qurbanov), Beynəlxalq standartlar üzrə komitənin (N.Abbaslı), Mübahisə və apellyasiyalar üzrə komitənin (A.Musayev), İnformasiya və mətbuat üzrə komitənin (N.Kərimov), Dövlət orqanları və ictimaiyyətlə əlaqələr üzrə komitənin (A.Əliyev), Beynəlxalq əlaqələr üzrə komitənin (L.Bayramova), Milli auditə dəstək üzrə komitənin (Z.Hüseynov), Qanunvericilik və hüquqi məsələlər üzrə komitənin (E.İbrahimov), Auditorların peşə etikası komitəsinin (Y.Salayev), Üzvlük məsələləri üzrə komitənin (İ.Əliyev) rəhbərliyinə və həmin komitələrin işinə Palata tərəfindən təhkim olunmuş Q.Bayramov, N.Talıbov, F.Qarayev, M.Abbasov, S.Gülməmmədov, V.Rəhimova tapşırılsın ki, komitələrin 2016-cı il üzrə iş planlarında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etsinlər.

**3.** Bu qərarın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**